# ÖLKƏNİN TİKİNTİ SEKTORUNDA ABŞERONUN DA XÜSUSİ PAYI VAR



Dünyada tikinti sektoru iqtisadi inkişafda və iqtisadiyyatın dayanıqlığının gücləndirilməsində xüsusi paya malikdir.

Azərbaycanda iqtisadiyyatın başqa sahələri ilə yanaşı tikinti-quruculuq işlərinin dinamik inkişafı bu gün də diqqət mərkəzindədir. Ölkədə tikinti işlərinin çox hissəsini qeyri-dövlət müəssisələri həyata keçirir. Tikinti sektoru həm məşğulluğun təmin edilməsi, həm də iqtisadi dəyərin formalaşdırılması baxımından prioritet sahələrdən biri olaraq qalır

Respublikada gedən tikinti işləri ayrı-ayrı bölgələrdə uğurla həyata keçirilir. Abşeron rayonunda da tikinti sahəsində göstəricilər qənaətbəxşdir.

2023-cü ilin yanvar-mart ayları ərzində tikinti işlərinin dəyəri 127718,3 min manat olmuşdur ki, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə çoxdur. Yerinə yetirilən tikinti işlərinin 121086,1 min manatını (94,8 faizini) tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilmə işləri, 3454,4 min manatını (2,7 faizini) əsaslı təmir işləri, 1629,6 min manatını (1,3 faizini) sari təmir işləri, 1548,2 min manatını (1,2 faizini) sair təmir işləri təşkil etmişdir. Öz gücləri ilə yerinə yetirilmiş işlərin 1564,5 min manatı dövlət, 126153,8 min manatı isə qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələri tərəfindən həyata keçirilmişdir.

2023-sü ilin yanvar-mart aylarında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 41163,6 min manat investisiya yönəldilmişdir. Dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 4064,0 min manat məbləğində, qeyri-dövlət müəssisələri isə 37099,6 min manat məbləğində sərmayə qoymuşdur.

Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həsmi ümumi investisiyanın 93,2 faizini təşkil edərək 38358,2 min manat olmuşdur.

Əsas kapitala yönəldilmiş vəsait bütünlüklə daxili investisiyalar hesabına formalaşmış və onun 9,9 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 90,1 faizi isə qeyri-dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların payına düşmüşdür.

2023-sü ilin yanvar-fevral aylarında tikinti müəssisələrində faktiki işləmiş işçilərin sayı 5820 nəfər olmuşdur ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 70,2 faiz çoxdur. Çalışan işçilərin 322 nəfəri dövlət, 5498 nəfəri isə qeyri-dövlət sektorunda işləmişdir. 2023-sü ilin yanvar-fevral aylarında tikinti müəssisələrində faktiki işləmiş işçilərin orta aylıq nominal əməkhaqqı 684,3 manat təşkil etmiş və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 31,5 faiz artmışdır. Dövlət tikinti müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 549,7 manat, qeyri-dövlət sektorunda işləyənlərin orta aylıq nominal əməkhaqqı isə 692,2 manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən dövlət müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 14,3 faiz, qeyri-dövlət sektorunda işləyənlərin orta aylıq nominal əməkhaqqı isə 31,9 faiz artmışdır.

***Abbasəli Allahverdiyev,***
***Abşeron Rayon***
***Statistika İdarəsinin əməkdaşı***

# AZƏRBAYCANIN BEYNƏLXALQ VALYUTA FONDUNA EHTİYACI YOXDUR

***Beynəlxalq Valyuta Fondu Azərbaycandakı ofisini 2023-cü ilin iyun ayının sonunda bağlamaq haqda qərar qəbul edib.***

***Fondun Yaxın Şərq və Mərkəzi Asiya Departamentindən Azərbaycanın Maliyyə Nazirliyinə ünvanlanmış məktubda belə bir qərarın verilməsinin səbəbi kimi Azərbaycanın güclü iqtisadiyyata və maliyyə ehtiyatlarına malik olması, yaxın gələcəkdə ölkəmizlə BVF arasında proqram xarakterli əməkdaşlığın gözlənilməməsidir.***

Məktubda qeyd olunur ki, ofisin bağlanması BVF-nin Azərbaycanla əlaqələrini zəiflətməyəcək, Azərbaycanın inkişaf strategiyası ilə bağlı iqtisadi və maliyyə siyasətini müzakirə etmək üçün müntəzəm missiyalar təşkil edəcək, zərurət yarandıqda texniki yardım göstərəcək.

Qeyd edək ki, müstəqilliyinin ilk illərində iqtisadi sahədə də ciddi böhranlarla üz-üzə qalan Azərbaycan Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra iqtisadi inkişaf dövrünə qədəm qoydu. Ümummilli Liderin neft strategiyası uzun zamana hesablanmış böyük siyasi




Son 20 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılıb. Beynəlxalq Valyuta Fondunun özünün statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgü-

təşkilatının yardımı olmadan Azərbaycan hökuməti işğal dövründə dağıdılmış yaşayış məntəqələrini öz gücü ilə bərpa edir. İşğaldan azad edilən ərazilərdə Füzuli və Zəngilan Beynəlxalq Hava limanları artıq istifadəyə verilib, Laçında Beynəlxalq Hava Limanının inşası isə davam edir. Qarabağda alternativ enerji istehsalı üçün stansiyalar yaradılır, yollar salınır, infrastruktur layihələri həyata keçirilir. Ümumilikdə Azərbaycan bu günədək Qarabağın bərpasına 9 milyard manata yaxın vəsait sərf edib.

Beynəlxalq Valyuta Fondunun 2021-ci il üzrə ”Dünyanın iqtisadi məzənnəsi” adlı hesabatında göstərilib ki, Azərbaycanın ÜDM-i 2023-cü ildə 2,6 faiz proqnozlaşdırılır. Bu proqnoz ölkə iqtisadiyyatının inkişaf tempinin göstəricisidir. Ötən 2022-ci ildə ÜDM 2021-ci ilə nisbətən 4,6 faiz artaraq 133 milyard 825,8 milyon manat, qeyri-neft-qaz sektorunda isə 9,1 faiz artaraq 69 milyard 826 milyon manat təşkil edib. Qeyd edək ki, Dünya Bankının 2023-cü il üçün ”Qlobal İqtisadi Perspektivlər” hesabatına əsasən, Azərbaycan üzrə verilən proqnozlarda real ÜDM-in artım tempi müsbət olaraq qalır. 2023-cü ildə Azərbaycan iqtisadiyyatında artım dünya ilə müqayisədə

addım idi və bu gün onun müsbət nəticələri özünü göstərməkdədir.

AZƏRTAC ölkəmizin iqtisadi inkişafı ilə bağlı bir sıra məqamlara nəzər salır.

Təsadüfi deyil ki, 2020-ci il üzrə ”Dayanıqlı İnkişaf Hədəfləri İndeksi”nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb. Ümumi daxili məhsul (ÜDM) 3 dəfə artıb, Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enib.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyədədir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır. Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çoxdur.

Dövlətimizin başçısı çıxışlarının birində bu uğurlardan danışaraq deyib: ”İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir”.

sünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılıb. Yarandığı vaxt aktivlərinin 270 milyon dollar təşkil etdiyi Fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Pandemiya dövründə Azərbaycan tərəfindən fərdi qaydada 14 ölkəyə, eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstərilib.

Bütün bunları nəzərə alaraq demək lazımdır ki, Azərbaycan artıq borc alan dövlətdən donor dövlətə çevrilib və beynəlxalq kredit təşkilatlarının maliyyə vəsaitlərinə ehtiyacı yoxdur. Cari ilin sonunadək Beynəlxalq Valyuta Fondunun Azərbaycandakı ofisinin bağlanması barədə qərar heç də təəccüblü deyil. Fondun bu qərarını Azərbaycanın artıq güclü iqtisadiyyata və böyük maliyyə ehtiyatına malik olması ilə izah edib. Əslində, bu qərar Azərbaycanın iqtisadi inkişaf sahəsində əldə etdiyi böyük uğurların daha bir təsdiqidir.

Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad etdi. Bu gün heç bir beynəlxalq kredit

1.1 faiz, ECA regionu ilə müqayisədə isə 2.7 faiz daha yüksək olacaq. Bu inkişaf tempi onu deməyə əsas verir ki, artıq Azərbaycan orta yüksək gəlirli statuslu ölkələr sırasındadır və milli iqtisadi strategiyasını öz gücü və imkanları hesabına icra edir.

Bu gün Azərbaycan TANAP və TAP vasitəsilə Avropaya qaz ixrac edir, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu kimi beynəlxalq iqtisadi layihələrin müəllifidir və bu layihələr Azərbaycan büdcəsinə valyuta axınını təmin edir. Gələcəkdə Zəngəzur dəhlizinin işə salınması Naxçıvan ilə Azərbaycanın digər regionlarının, eləcə də Türkiyə ilə Orta Asiya respublikalarının nəqliyyat baxımından birləşməsini təmin edəcək. Ümumilikdə isə Avropa ilə Asiyanı birləşdirəcək Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas hissəsi olan Zəngəzur dəhlizi Azərbaycana həm iqtisadi, həm də siyasi dividend qazandıracaq. Milyardlarla dollar həcmində ticarət dövriyyəsi məhz bu dəhlizlə reallaşacaq ki, bu da ölkəmizə əlavə valyuta axınını təmin edəcək.

Yuxarıda deyilənləri nəzərə alaraq Azərbaycanın Beynəlxalq Valyuta Fondu kimi quruma ehtiyacının olmadığı və bunun Fond tərəfindən də başa düşüldüyü aydın olur.

# *DÖVLƏT DEPARTAMENTİ:* AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA BİRBAŞA DANIŞIQLAR BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR

Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlar böyük əhəmiyyət kəsb edir. Bu ABŞ Dövlət Departamentinin mətbuat katibinin birinci müavini Vedant Patel brifinqdə deyib.

”ABŞ davamlı sülhü təmin etmək üçün çalışdıqları iki ölkəyə hərtərəfli dəstək verməyə davam edir. Biz tərəflərin bu müzakirələri davam etdirmək niyyətində olduqları barədə xəbərləri alqışlayırıq və iki ölkə arasında sülhün mümkün olduğuna inamımızı bir daha təsdiq edirik. Birbaşa dialoq problemin həllinin açarıdır. Biz hesab edirik ki, tərəflər arasında birbaşa danışıqlar böyük əhəmiyyət kəsb edir. İstər Arlinqtonda, istər




Brüsseldə, istərsə də Moskvada bu səylərə dəstəyimiz davam edəcək”, - deyə o bildirib.

*Təsisçi:* Füzuli İsmayılov
və redaksiyanın
jurnalist kollektivi

*İdeya rəhbəri:*
*Loğman Rəşidzadə*

*Baş redaktor:* Füzuli Əfqanoğlu

*Məsul əməkdaşlar:*
Telman Bağırov,
Elvin İsmayılzadə,
Mehriban İsmayılzadə,
Dəyanət Kərimov

*Bank rekvizitlərimiz:*
Kapital Bank ASC-nin
Nəsimi rayon filialı
“Hakimiyyət” qəzeti
VÖEN 1400875811
Hesab №
AZ67AIIB40060019440409430111

Qəzet 1994-cü ildə Mətbuat və İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınaraq, 173-saylı şəhadətnamə ilə fəaliyyət göstərir

Qəzet redaksiyanın “Jalə” kompüter mərkəzində yığılaraq “Son dəqiqə” mətbəəsində
çap olunub.

Tiraj: 1550

*Ünvan:* Bakı, Azadlıq pr. 161 B

Telefon: (050) 680-99-76
E-mail: *hakimiyyet@gmail.com*
*hakimiyyet.tv@gmail.com*

*Bizi sosial şəbəkələrdə izləyin:*
*Facebookda: Hakimiyyət qəzeti,*
*İnstaqramda: Hakimiyyət Qəzeti*
*Youtube-da: Hakimiyyet TV*
*Tvitterdə: HakimiyyetC*



# MİNA TERRORU QURBANLARININ AİLƏLƏRİ BEYNƏLXALQ İCTİMAİYYƏTƏ MÜRACİƏT EDİBLƏR

”Minaların Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyi Horadiz şəhərində ”Minalardan Azad Cənubi Qafqaz” regional kampaniyası çərçivəsində ”Minalarla çirklənmə və bunun azərbaycanlı məcburi köçkünlərin öz doğma şəhər və kəndlərinə qayıtmasına təsiri” mövzusunda görüş keçirib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdə ANAMA-nın, Ombudsman Aparatının, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, Füzuli Rayon İcra Hakimiyyəti başçısı aparatının, bu cür hadisələrlə üzləşən icmaların, o cümlədən Alxanlı, Şükürbəyli, Horadiz, Qazaxlar, Əhmədalılar kəndlərinin ərazi icra nümayəndələri, mina qurbanlarının yaxınları və KİV nümayəndələri iştirak ediblər.

Tədbirin əsas məqsədi məcburi köçkünlərin geri qayıtması və onların rifahı ilə bağlı prosesdə mina təhlükəsinin yaratdığı çağırışları və mina terrorunun ağır nəticələri barədə hesabatın hazırlanması və beynəlxalq təşkilatlara təqdim edilməsi olub.

Görüşdə təqdimatlar olunub. Bildirilib ki, Azərbaycan ərazilərinin minalarla və PHS ilə çirklənmə səviyyəsinə görə dünyada ilk yerlərdən birini tutur. Azərbaycanda mina qurbanlarının sayının davamlı artması da mina problemlərinin çox ciddi olduğunu təsdiqləyir. Füzuli rayonunun 1994-cü ildə işğaldan azad edilən Alxanlı, Şükürbəyli, Horadiz, Qazaxlar, Əhmədalılar kəndlərinin əraziləri təmizlənsə də, hələ də həmin kəndlərin sakinləri psixoloji gərginlik səbəbindən bu ərazilərdən tam səmərəli istifadə edə bilmirlər.

Tədbirdə iştirak edən mina terroru qurbanlarının ailələri adından həm Azərbaycan, həm də beynəlxalq ictimaiyyətə müraciət səsləndirilib. Qeyd olunub ki, beynəlxalq ictimaiyyət Azərbaycandakı mina problemlərinə ciddi yanaşmalı və bu problemin tez zamanda həll olunması üçün Azərbaycana dəstək verilməlidir.

Görüş ”LINKS Europe” ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin və Böyük Britaniyanın Bakıdakı səfirliyinin dəstəyi ilə təşkil olunub.

# ÜMUMİ ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ ELAN OLUNUB

***Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə aprelin 30-da keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.***

Dövlət İmtahan Mərkəzindən bildirilib ki, şagirdləri verilmiş keçidə daxil olaraq iş nömrəsi və şəxsiyyəti təsdiq edən sənədin nömrəsindən (və ya FİN kodundan) istifadə etməklə öz imtahan nəticələri, cavab vərəqinin qrafik təsviri ilə tanış ola bilərlər. İmtahan iştirakçıları iş nömrələrini buradan öyrənə bilərlər.

Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı) mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə bu imtahan üçün nəzərdə tutulan buraxılış vərəqəsində göstərilən kodu 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

Yazı işlərinin (açıq tipli tapşırıqların cavabları) yoxlanılması prosesi onlayn şəkildə həyata keçirilib. Belə ki, hər marker yoxlama prosesinə öz evindən qoşularaq proqramın onun kompüterinə təsadüfi göndərdiyi işləri yoxlayıb. Qeyd edək ki, onlayn (evdən) yoxlama prosesində üztanıma texnologiyası tətbiq edilib və yoxlama prosesinin bütün tələblərinə (meyarların təkmilləşdirilməsi, işlərin şifrələnməsi, markerlərin hər tapşırıq üzrə yoxlamadan əvvəl kalibrləmədə iştirak etməsi, yoxlama ərzində ”seeding” (markerlərə sayıqlığı itirməmək üçün əvvəlcədən hazırlanan və kalibrə edilən sualların mütəmadi olaraq göndərilməsi) prosesinin tətbiqi, işlərin markerlərə proqram tərəfindən təsadüfi göndərilməsi, imtahan protokollarının araşdırılması və s.) əməl olunub.

Yazı işlərinin onlayn (evdən) yoxlanılması üçün proqram təminatı Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanıb.

Bu imtahanlarda iştirakı nəzərdə tutulan 48065 nəfərdən 373 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 9 nəfərin nəticəsi ləğv olunub.

İmtahan iştirakçıları arasında 1 nəfər - Naxçıvan Qarnizonunun tam orta məktəbinin şagirdi maksimal olan 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 25 may tarixindən etibarən onlayn (”Zoom” proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 22 may saat 10:00-dan 24




may saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində şagirdin iştirakı vacibdir. Şagird ilə yanaşı valideynlərindən biri müzakirədə iştirak edə bilər. Bir şagirdin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl şagirdlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış olmalıdırlar. Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların təqribən 15%-i ümumiyyətlə tapşırığa cavab verməyib və ya öz cavabı ilə mümkün doğru cavabları, qiymətləndirmə şkalasını müqayisə edib tanış olmadan komissiyaya müraciət ediblər. Şagirdlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmayacaq.